*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 18 (509)
15 sentyabr
2017-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

# PREZİDENT İLHAM ƏLİYEV "EXPO 2017 ASTANA" BEYNƏLXALQ SƏRGİSİNDƏ AZƏRBAYCANIN VƏ QAZAXISTANIN MİLLİ PAVİLYONLARI İLƏ TANIŞ OLUB

***Sentyabrın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Qazaxıstanın paytaxtında keçirilən "EXPO 2017 Astana" beynəlxalq sərgisində Azərbaycanın və Qazaxıstanın milli pavilyonları ilə tanış olub.***

**AZƏRTAC-ın** xüsusi müxbiri xəbər verir ki, "EXPO 2017 Astana" milli şirkətinin rəhbəri Axmetjan Yessimov Prezident İlham Əliyevə sərgi barədə məlumat verdi.

Bildirildi ki, iyunun 10-da açılan sərgidə Azərbaycan da daxil olmaqla 115 ölkə, 22 beynəlxalq təşkilat təmsil olunur. "EXPO 2017 Astana" beynəlxalq sərgisinin ABŞ, Fransa, Almaniya, Yaponiya, Braziliya, Kanada, İngiltərə, İspaniya, Çin kimi ölkələrdən sonra Qazaxıstanda keçirilməsi enerji sahəsi üzrə əməkdaşlığın daha da inkişafına, həmçinin iştirakçı ölkələrdə tətbiq olunan yeni texnologiyaların mübadiləsinə imkan yaradır. Ümumi sahəsi 174 hektar olan sərgidə gələcəyin texnologiyaları, dünyanın enerjiyə qənaəti və bu sahədə ən son ixtiralar, yeniliklər, nüvə enerjisi kimi enerji növləri nümayiş etdirilir.

Dövlətimizin başçısı əvvəlcə "Azərbaycan - Enerji Yurdu (Azerbaijan Land of Energy) milli pavilyonu ilə tanış oldu.

Prezident İlham Əliyevə məlumat verildi ki, "EXPO 2017 Astana" sərgisində öz iştirakını təsdiq edən ilk ölkələrdən olan Azərbaycanın pavilyonu ən çox ziyarət edilənlər arasındadır. Sərgi müddətində Azərbaycan milli pavilyonunu ziyarət edənlərin sayı bir milyonu ötüb.

Heydər Əliyev Mərkəzi və Energetika Nazirliyi tərəfindən təşkil edilən Azərbaycan pavilyonu "Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji" konsepsiyası əsasında hazırlanıb. Milli pavilyonun konsepsiyası "Enerji Yurdu - keçmişdən gələcəyə daşınan enerji" devizinə əsaslanır.

Sərgi çərçivəsində iyulun 9-da pavilyonda Azərbaycan Milli Günü təşkil edilib və pavilyonun rəsmi təqdimatı olub.



Milli pavilyonda Azərbaycanın tarixini, mədəniyyətini, turizm potensialını, ölkəmizin evsahibliyi etdiyi mötəbər beynəlxalq idman yarışlarını əks etdirən film nümayiş olunur. Pavilyonda ziyarətçilərə Azərbaycanın tarixi-mədəni irsi, zəngin enerji potensialı, gələcək enerji mənzərəsi və dövlətimizin enerji siyasəti yüksək texnologiyalar vasitəsilə təqdim edilir. Üç hissədən ibarət pavilyonun giriş zalının dizaynı bükülmüş xalça formasındadır. Burada təqdim olunan foto və videomateriallar ziyarətçiləri Azərbaycan tarixinə səyahətə aparır. Bu hissədə Azərbaycan xalçaları, mətbəxi və musiqisinin incilərini yaxından görmək və Qobustan qayaüstü təsvirlərindən, "Atəşgah" məbədindən Bakının müasir memarlıq incilərinədək müxtəlif tarixi və modern tikililərlə tanış olmaq mümkündür.

Milli pavilyonda, həmçinin Azərbaycanın ənənəvi enerjidən alternativ enerjiyə qədər keçdiyi inkişaf prosesi, neft, neft məhsulları, qaz, elektrik, külək, günəş enerjisi ilə bağlı təqdimatlar nümayiş etdirilir. Külək enerjisinə həsr olunan eksponatlar və gələcəkdə Xəzər dənizinin Çilov və Pirallahı adaları arasında qurulması nəzərdə tutulan külək elektrik stansiyasının xəritəsi isə ölkənin gələcəyində külək enerjisinin əhəmiyyətini diqqətə çatdırır.

Pavilyonun ekspozisiyasında palçıq vulkanları, bioloji tullantıların təkrar emalının müasir texnologiyaları, yeni enerji mənbəyi kimi qaz hidratları sahəsində Azərbaycanda aparılan araşdırma əsasında qurulan eksponat, karbohidrogen hasilatının ən uyğun ekoloji yolu kimi üfüqi qazma işləri və Azərbaycandan gətirilən real neft nümunələri təqdim olunur.

Xüsusilə də üç model - "Çıraq 1" platformasının modeli və onu tamamlayan Xəzər dənizində neft çıxarılmasında istifadə olunan orijinal qazma baltası, Azərbaycan istehsalı olan üçhissəli külək pəri və rotor qanadı ekspozisiyanın incisi hesab edilir.

Pavilyonda Azərbaycana virtual tur-səyahət də nəzərdə tutulub. İzləyicilər real xalça üzərində əyləşir, milli çalarlı musiqinin müşayiəti ilə 220 dərəcə bucaq altında əyilmiş videoproyeksiya vasitəsilə odlar və enerji yurduna fantastik uçuş edir, ölkənin rəngarəng mənzərələri ilə tanış olurlar. Bu isə sərgini izləyənlərdə böyük maraq oyadır.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev Qazaxıstan milli pavilyonu - "Nur Alem" ilə tanış oldu.

Qeyd edildi ki, sərginin ən böyük pavilyonu olan səkkizmərtəbəli "Nur Alem"in ümumi sahəsi 41,5 min kvadratmetrdir. Nəhəng kürə formasında hazırlanan pavilyonun hündürlüyü 100, diametri isə 80 metrdir.

Pavilyonun birinci mərtəbəsində Qazaxıstanın tarixi, mədəniyyəti, adət-ənənələri və turizm potensialını əks etdirən stendlər, sərgilər, tematik görüntülər nümayiş olunur. Burada "Gələcəyin muzeyi" sərgisi xüsusilə böyük maraq oyadır. Ziyarətçilər "Nur Alem" kompleksində ümumiyyətlə rəqəmsal, interaktiv və multimedia texnologiyaları vasitəsilə ölkənin perspektiv planları ilə tanış olmaq imkanı əldə edə bilirlər.

"Nur Alem" pavilyonunun digər mərtəbələrində enerjinin əsas mənbələrindən olan kosmos, günəş, biokütlə, külək, su və kinetika növləri nümayiş etdirilir. Pavilyonun səkkizinci mərtəbəsində "Astana - Gələcəyin şəhəri 2050" ekspozisiyası təqdim olunur. Pavilyonun fasadı, dizaynı isə EXPO-nun ümumu görünüşünü tamamlamaqla Astana sərgisinin simvoluna çevrilib.

Dövlətimizin başçısı "Nur Alem" pavilyonunun səkkizinci mərtəbəsindən Astana şəhərinin ümumi mənzərəsini seyr etdi.

Sonra Prezident İlham Əliyev "EXPO 2017 Astana" beynəlxalq sərgisinin xatirə kitabına ürək sözlərini yazdı.

Sonda xatirə şəkli çəkdirildi.

# ALİ HƏRBİ MƏKTƏBDƏ KURSANTLARIN ANDİÇMƏ MƏRASİMİ KEÇİRİLİB

***Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının bu münasibətlə ünvanladığı təbriki çatdırılıb***



***Daxili Qoşunların Ali Hərbi Məktəbinə bu il qəbul olunan kursantların təntənəli andiçmə mərasimi keçirilib. Veteranlar Şurasının üzvləri, kursant valideynlərinin də iştirak etdiyi tədbir Ali Hərbi Məktəbin Döyüş Bayrağının sıra meydanına gətirilməsi ilə başlanıb.***

Azərbaycan xalqının Milli Lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçularımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Daxili Qoşunların Nümunəvi Göstərici Hərbi Orkestrinin müşayiətilə Dövlət himni ifa olunub.

Ali Hərbi Məktəbə yeni qəbul olunmuş kursantlar hərbi and içərək, üzərilərinə düşən şərəfli və məsul vəzifələrin, Silahlı Qüvvələrin Nizamnamələrinin, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının tələblərinə əməl edəcəklərinə söz veriblər.

Ali Hərbi Məktəbin rəisi general-mayor İ.Məmmədov kursantları təbrik edərək, hərbi andın mənasını, öz xalqına, Azərbaycan Respublikasına və Azərbaycan hökumətinə sədaqətlə and içən kursantların üzərinə düşən şərəfli və məsul vəzifələri, eləcə də Azərbaycan Respublikası Konstitusiyasının müvafiq maddələrinin tələblərini xatırladıb.

Kursantlar adından çıxış edən Bəhmən Məmmədli zabit adına hər zaman layiq olmağa çalışacaqlarına və bu yolda, lazım gələrsə, canlarını fəda edəcəklərini bildirib.

Valideynlər adından isə çıxış edən İntiqam Balaşov bütün valideynləri təbrik edərək, övladlarına seçdikləri müqəddəs və şərəfli peşədə dəstək olmağa çağırıb. Kursantlarla yanaşı, hər bir valideynin müsəlləh əsgər kimi Vətənin müdafiəsinə hazır olduqlarını əmin edib.

Sonda hərbi andiçmə münasibəti ilə Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanının təbriki çatdırılıb. Qeyd olunub ki, Vətənimizin layiqli övladları, Daxili Qoşunların Ali Hərbi Məktəbinə qəbul edilmiş kursantlar təntənəli surətdə hərbi and içdikləri andan etibarən qoşunların bütün şəxsi heyəti kimi qarşıya qoyulan hər bir tapşırıq üçün şəxsi məsuliyyət daşıyırlar. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunların daha da möhkəmlənməsi və qüdrətlənməsi üçün göstərdiyi diqqət və qayğıya cavab olaraq, kursantlar təhsillərini müvəffəqiyyətlə başa vuracaq, qoşunların hərbi hissələrində hazırlıqlı və peşəkar zabitlər kimi xidmətə başlayacaq, bilik və bacarıqlarını dövlətimizin qorunması, ölkəmizin daha da qüdrətlənməsi, inkişafı və tərəqqisi naminə əsirgəməyəcək, bu şərəfli yolda inamla addımlayaraq xidməti fəaliyyətlərində uğurlar əldə edəcəklər.

Tədbir şəxsi heyətin sıra meydanında təntənəli keçidi ilə başa çatıb.





**Mətbuat xidməti**

# DAXİLİ QOŞUNLARIN DƏSTƏYİ İLƏ GƏNCLƏRİN ÇAĞIRIŞAQƏDƏR HAZIRLIĞI KABİNETİ YARADILIB

***Səbail rayonunun 20-ci Yaşayış sahəsindəki 162 nömrəli tam orta məktəbin binası yenidənqurmadan sonra istifadəyə verilib.***

Təhsil ocağının 41 sinif otağından və müxtəlif fənn kabinetlərindən ibarət üçmərtəbəli binasında yenidənqurma işləri qısa zamanda və müasir standartlara uyğun olaraq yüksək keyfiyyətlə həyata keçirilib.

Qeyd edək ki, məktəbdə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları tərəfindən gənclərin çağırışaqədər hazırlığı kabineti yaradılıb. Kabinetdə hərbi vətənpərvərlik mövzularını əks etdirən stendlər quraşdırılıb, əsgərin xidməti fəaliyyəti və məişət şəraiti ilə bağlı, əmlaklarla zəngin guşə yaradılıb. Bununla yanaşı, hərbi geyim nümunələri və təlim silahları, müxtəlif hərbi maketlər, şüşə vitrinlərdə isə hərbi ləvazimatlar yerləşdirilib. Bütün bunlar hərbi hazırlıq fənninin tədrisi zamanı məktəblilərə ilkin hərbi biliklərin aşılanmasında mühüm əhəmiyyət kəsb edəcək.

Daxili Qoşunların dəstəyi ilə 162 saylı tam orta məktəbdə yaradılmış gənclərin çağırışaqədər hazırlığı kabineti sayca altıncıdır. Ötən illərdə Sumqayıt şəhərinin 1, Səbail rayonunun 2, Qaradağ rayonunun 1, Suraxanı rayonunun 1 təhsil müəssisələrində analoji hərbi kabinetlər yaradılıb.

**Mətbuat xidməti**








# TEXNİKİ BAXIŞIN NƏTİCƏLƏRİ MƏLUM OLUB

***Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının müvafiq əmrinə əsasən, avqust ayının 1-dən 26-dək Daxili Qoşunların Baş İdarəsində, Ali Hərbi Məktəbdə və hərbi hissələrdə kimya silahlandırma vasitələrinə və xüsusi avtomobillərə illik texniki baxış keçirilib.***

Texniki baxışın keçirilməsi zamanı kimya silahlandırma vasitələrinin və xüsusi avtomobillərin texniki vəziyyəti, xüsusi vasitələrin tətbiqi bölmələrinin və kimya xidmətinin bütün kateqoriyalı hərbi qulluqçularla komplektləşdirilməsi, yoxlama-nəzarət normalarının yerinə yetirilməsi yoxlanılaraq qiymətləndirilib. Müəyyən olunub ki, kimya xidmətinin fəaliyyəti Daxili İşlər Nazirliyinin və Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanının əmrlərinin tələbləri əsasında təşkil olunur.

Yekun nəticələrə əsasən, qoşunların 99713, 67987 və 12318 saylı hərbi hissələri daha yüksək nəticələr əldə ediblər.

Kimya silahlandırma vasitələrini və xüsusi avtomobilləri qoruyub saxladıqlarına və istismarını düzgün təşkil etdiklərinə, xüsusi vasitələrin daşınması üçün döşlüklərə xüsusi vasitələri normaya uyğun olaraq bölüşdürdüklərinə, bölmələrin döyüş hazırlığını yüksək səviyyədə saxladıqlarına görə hərbi qulluqçular hissə komandirlərinin səlahiyyətləri ilə mükafatlandırılıblar.

**Mətbuat xidməti**

# HƏRBİ XİDMƏT MÜSBƏT KEYFİYYƏTLƏR AŞILAYIR

"Əsgər" qəzeti üçün məqalə hazırlanması məqsədilə 16076 saylı hərbi hissədə oldum.

Burada mühüm dövlət obyektlərinin mühafizəsi üzrə döyüş xidmətinin aparılmasında ayıq-sayıqlıq göstərən, yüksək nizam-intizama malik, təlimlərdə fərqlənən çavuş və əsgərlərlə görüşüb söhbət etdim.

Qeyd edim ki, bu hərbi qulluqçularla ünsiyyət məndə onların fərdi keyfiyyətləri, hərbi xidmətə münasibətləri barədə xoş təəssürat yaratdı. Onlar layiqincə xidmət edərək, Daxili Qoşunların nüfuzunu uca tuturlar.

**Çavuş Coşqun Məmmədzadə** 1998-ci ildə Tovuz rayonunda anadan olub. 2016-cı ilin iyul ayında hərbi xidmətə çağırılıb. Hərbi hissənin mühafizə bölüyündə manqa komandiridir. Bu ilin yanvarında ona kiçik çavuş, avqust ayında isə çavuş hərbi rütbəsi verilib. Komandirlər tərəfindən bacarıqlı və qətiyyətli hərbi qulluqçu kimi xarakterizə olunur. Qarovul xidmətində qarovul rəisinin köməkçisi kimi üzərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlir. Manqa komandiri kimi də hər cəhətdən əsgərlərinə nümunədir. Hərbi hissə komandiri tərəfindən ona təşəkkür elan olunub, fərmanla mükafatlandırılıb.

Özünün dediyinə görə, idmana böyük marağı var. Hərbi xidmətə qədər sərbəst güləş növü ilə məşğul olub. Zona yarışında ikinci yeri tutub.

Çavuş C.Məmmədzadə hərbi xidmətdən sonra polis olmaq və xalqımızın asayişinin keşiyində dayanmaq istəyir.

**Çavuş Hidayət Məmmədov** isə hərbi hissənin digər mühafizə bölüyündə manqa komandiridir. O, 1998-ci ildə Şəki rayonunda anadan olub. 2016-cı ilin aprel ayında hərbi xidmətə çağırılıb. Bu ilin fevral ayında ona kiçik çavuş hərbi rütbəsi verilməklə manqa komandiri vəzifəsinə təyin olunub. İyul ayında isə ona çavuş hərbi rütbəsi verilib. Hərbi hissə komandiri, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb.

Manqa komandiri kimi öz məsuliyyətini dərk edir, tabeçiliyində olan şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsinə çalışır. Hərbi hissədə patrul rəisi kimi xidmətə cəlb olunaraq, verilmiş tapşırıqları dəqiq yerinə yetirir. Bu il hərbi hissədə keçirilən inspeksiya yoxlamasından "əla" qiymət alıb.

**Kiçik çavuş Əmikişi Əmikişiyev** 1998-ci ildə Şəki rayonunda anadan olub. Hərbi xidmətə çağırılanadək orta məktəblə yanaşı, peşə məktəbində də oxuyub. Həmçinin, ağırlıqqaldırma idman növü ilə məşğul olub. 2016-cı ilin aprel ayında hərbi xidmətə çağırılıb. O da mühafizə bölüyündə manqa komandiridir. Bu ilin may ayında ona kiçik çavuş hərbi rütbəsi verilib. Hərbi hissədə qarovul rəisinin köməkçisi kimi xidmətə cəlb olunaraq, döyüş xidmətində yüksək məsuliyyət nümayiş etdirir. Hərbi hissə, bölük və taqım komandirləri tərəfindən mükafatlandırılıb. Keçirilmiş son inspeksiya yoxlamasından "əla" qiymət alıb. "Əlaçı" döş nişanı var. Manqa komandiri kimi tabeliyindəki əsgərlərin də təlim göstəricilərinin yüksək olmasına səy göstərir. Hərbi xidmətdən sonra asayiş keşikçisi olmağı arzulayır.




*(davamı gələn sayımızda)*

**Yalçın Abbasov**

# SAVADLI MÜTƏXƏSSİS, VƏZİFƏLƏRİNİ MƏSULİYYƏTLƏ İCRA EDƏN PSİXOLOQ, MEHRİBAN İNSAN...

***Psixoloq ona inanaraq kömək istəyən hər bir kəsi başa düşməli, anlayışlı olmalıdır. Dayanıqlı, möhkəm psixikaya malik olmaqla, qarşısındakı insanı nəinki eşitməli, səbirlə, təmkinlə dinləməli, istənilən situasiyanı qiymətləndirməli, mütləq analiz etməyi və vəziyyətə uyğun olaraq düzgün məsləhətlər verməyi bacarmalıdır***

Savadlı mütəxəssis, öz işini bilən və vəzifələrinə məsuliyyətlə yanaşan psixoloq, gülərüz, mehriban qadın, qayğıkeş insan - Mərifət xanım Məmmədova haqqında danışarkən mübaliğəsiz bu ifadələrin hər birini işlətmək mümkündür.

Daxili Qoşunların Ali Hərbi Məktəbinin tərbiyə bölməsində təlimatçı-psixoloq vəzifəsində çalışan M.Məmmədova şəxsi heyətin dərin hörmətini qazanıb. İlk görünüşdən səmimiyyəti ilə diqqəti cəlb edən müsahibim xoş siması ilə insanda müsbət təəssürat yaradır.

Mərifət xanım 1964-cü il noyabrın 26-da Bakı şəhərində doğulub. Uşaqlıqdan müxtəlif peşələrə maraq göstərsə də, sonda psixologiya elminin dərinliklərinə yiyələnməyə qərar verir və Azərbaycan Müəllimlər İnstitutunda "Psixologiya" ixtisası üzrə ali təhsil alır. 1986-cı ildən pedaqoq-psixoloq kimi fəaliyyət göstərməyə başlayıb.

Ali Hərbi Məktəbdə çalışana qədər internat evlərində, özəl müəssisələrdə, həmçinin müxtəlif orta məktəblərdə psixoloq kimi çalışıb. O illəri xatırlayaraq qeyd edir ki, hələ o zamanlarda işlədiyi internat evlərində qüsurlu uşaqların nitqlərinin düzəlməsi, onların cəmiyyətə, digər uşaqlara adaptasiya olunmaları üçün əlindən gələni əsirgəməyib. Musiqi ilə keçirilən autogen məşğələlər nəticəsində həmin uşaqlarda müəyyən irəliləyişlərin əldə olunmasına nail olub. Bundan başqa, çətin tərbiyə olunan uşaqların nizam-intizama gətirilməsi üçün əzmlə çalışıb. Psixoloq bildirir ki, bunun üçün həm peşəsinə, həm də uşaqlara böyük sevgi və səbirlə yanaşıb: "Hər şeyin əsasında sevgi durur. Hər bir kəs öz peşəsini sevməlidir. Biz insanlarla işləyirik. Ümumiyyətlə, insanla işləmək, onun psixologiyasını öyrənmək və şəraitə uyğun olaraq fəaliyyət göstərmək olduqca çətin, həm də məsuliyyətlidir. Bu baxımdan qarşındakı insana kimliyindən asılı olmayaraq, sevgiylə yanaşmalısan. Düşünürəm ki, bununla ən intizamsız, çətin tərbiyə olunan insanı belə ram etmək mümkündür. Lakin diqqət və qayğını da unutmaq olmaz. Bu amillər üçlükdə vəhdət təşkil edir".

M.Məmmədovanın sözlərinə görə, pedaqoq, o cümlədən psixoloq həm də mütləq şəxsi nümunə göstərməyi bacarmalıdır, çünki ən nümunəvi tərbiyə metodu məhz budur.

Bu baxımdan demək olar ki, Mərifət xanım vəzifələrinin öhdəsindən layiqincə gəlir. Bəlkə 30 illik pedoqoji fəaliyyətində qazandığı uğurların əsasını da bu təşkil edir - işini, peşəsini sevmək və ona məsuliyyətlə yanaşmaq.

M.Məmmədova həm də dəyərli insan, mükəmməl şəxsiyyət kimi hər kəsə nümunədir.

O, 2013-cü ildən Daxili Qoşunların Ali Hərbi Məktəbində işçi kimi çalışır. Özü qeyd edir ki, uzun illərdə orta məktəblərdə psixoloq kimi fəaliyyət göstərdikdən sonra hərbi sahəyə gəlməkdə bir qədər tərəddüd edib. Lakin onun Vətənə dərin məhəbbəti, torpağı qoruyan, onun müdafiəçisi sayılan hərbi qulluqçulara hörməti bu addımı atmağa cəsarətləndirib. Artıq 4 ildir ki, burada nəinki kursantlarla,



həmçinin hərbi hissələrdə müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları ilə işləyir, onlara lazımi köməklik göstərir.

Hərbi xidmətə adaptasiya olmaqda çətinlik çəkən, həmçinin nəzarət tələb edən hərbi qulluqçularla mütəmadi olaraq maraqlanır, onların psixoloji durumunun daim stabil qalması üçün söhbətlər aparır, çətinliklərin aradan qaldırılması üçün əlindən gələni edir.

Söhbət zamanı "adaptasiya çətinliyi" ilə "adaptasiya problemi" anlayışları arasında fərqlərə toxunan müsahibim bildirir ki, hərbi qulluqçularda adaptasiya çətinliyini aradan qaldırmaq nisbətən asandır: "Bunun üçün müxtəlif psixoloji təlim metodları - özünütənzimləmə, özünüidarəetmə, özünənəzarətetmə, özünüyüngülləşdirmə, müşahidə, testlərdən istifadə və digər metodlar mövcuddur. Həmin metodlardan istifadə etməklə bu çətinliyi aradan qaldırmaq mümkündür. Bu proses zamanı Ali Hərbi Məktəbin rəisinin tərbiyə işləri üzrə müavini, bölük komandiri, bölük komandirinin müavini və komandir heyəti ilə birgə kompleks iş aparılır. Bu metodlar içərisində fərdi söhbət metodu daha effektlidir və daha tez nəticələr əldə etməyə imkan verir. Çünki fərdi söhbət zamanı kursant və ya əsgər psixoloqla təkbətək olur, bu zaman öz hisslərini, onu narahat edən problemləri daha rahat ifadə edə bilir. Əlbəttə ki, bu zaman psixoloqun davranışlarından, üz cizgilərindən də çox şey asılıdır. Məsələn, psixoloq əsəbi, gərgin olarsa, bunu qarşısındakı insana ötürər və heç bir nəticə əldə olunmaz".

Bundan əlavə, işin effektiv olması üçün hərbi qulluqçular müəyyən qruplara (qapalılar, hallisunasiya halları keçirənlər, intizamsızlığa meyilli olanlar, psixoloji vəziyyəti sabit olmayanlar, nəzarət tələb edənlər və s.) bölünür və məşğələlər qruplarla keçirilir. Yalnız müsbət nəticələr əldə olunduqdan sonra onlar həmin qruplardan çıxarılır.

Mərifət xanım onu da bildirdi ki, mütəmadi olaraq müxtəlif fənləri tədris edən pedaqoqlarla kursantların psixoloji durumu, əhval-ruhiyyəsi barədə söhbətlər aparır, narahat edən hərbi qulluqçu olarsa, onun xarakterik xüsusiyyətləri (aqressiv, utancaq, qəzəbli, səbirsiz və s. olması), fərdi psixoloji keyfiyyətləri birlikdə analiz olunur, ona qarşı yanaşma metodları müzakirə edilir. Müsahibim qeyd edir ki, hər bir pedaqoq eyni zamanda həm də psixoloq olmalıdır. Çünki pedaqoq da, psixoloq da insan təfəkkürü ilə işləyir və onu dərindən bilməli, düzgün yanaşma tərzini seçməyi bacarmalıdır.

Yaxşı psixoloq necə olmalıdır? - sualına isə mütəxəssis belə cavab verdi: "Psixologiya bir elmdir, ona görə də ilk növbədə, onu dərindən oxuyub öyrənmək lazımdır. İnsan fəaliyyətinin elə bir sahəsi yoxdur ki, psixologiya ona təsir etməsin. Təsadüfi deyil ki, müasir dövrdə mütəxəssislərin psixoloji hazırlığı onun peşə hazırlığının tərkib hissəsi sayılır. Bundan başqa, psixoloq ona inanaraq kömək istəyən hər bir kəsi başa düşməli, anlayışlı olmalıdır. Dayanıqlı, möhkəm psixikaya malik olmaqla, qarşısındakı insanı nəinki eşitməli, səbirlə, təmkinlə dinləməli, istənilən situasiyanı qiymətləndirməli, mütləq analiz etməyi və vəziyyətə uyğun olaraq düzgün məsləhətlər verməyi bacarmalıdır. Bu, keyfiyyətli nəticənin qazanılması üçün mühüm faktordur".

Psixoloq sözlərinə onu da əlavə etdi ki, profil üzrə ali təhsil almaq faktoru mühüm rol oynayır, lakin spesifik, professional bacarıqlar olmasa, yaxşı mütəxəssis olmaq mümkün deyil.

Söhbət zamanı həmin gün (06.09.2017-ci il) komendant bölüyünün döyüş xidmətinə cəlb olunan hərbi qulluqçuları otağa daxil oldular. Mərifət xanım onların hər biri ilə ayrı-ayrılıqda fərdi söhbət apardı, onların səhhətləri, narahatlıqları, xidmətə münasibətləri ilə maraqlandı. Psixoloq söylədi ki, hərbi qulluqçularla aparılan bu söhbətlərin çox böyük əhəmiyyəti vardır. Bu söhbətlər zamanı problemi olanlar aşkarlanaraq dərhal xidmətdən kənarlaşdırılırlar.

Daxili Qoşunların Komandanlığı və Ali Hərbi Məktəbin rəhbərliyi tərəfindən psixoloqların işinə böyük diqqət göstərildiyini vurğulayan Mərifət xanım vurğuladı ki, bunun əsas göstəricisi kimi, cari ilin yanvar və iyul aylarında keçirilən psixoloqların təlim toplanışlarını qeyd etmək olar: "Həmin toplanışlarda hərbi qulluqçularla aparılan psixoloji iş, onların qeyri-stabil vəziyyətdən çıxarılması üçün istifadə olunan metodlar və digər mövzularda fikir mübadiləsi aparılıb. Ümid edirəm ki, bundan sonra təlim toplanışları davamlı olaraq keçiriləcəkdir, çünki həqiqətən də psixoloqların təcrübəsinin daha da artırılmasında vacib rol oynayır və onları peşəkar olmağa sövq edir".

Sonda bacarıqlı mütəxəssis gənc psixoloqlara öz tövsiyələrini verməyi unutmadı. Bildirdi ki, bütün sahələrdə olduğu kimi, psixologiya sahəsində çalışanlar da hər zaman yorulmadan öz üzərlərində işləməli, bu peşə üzrə yeniliklərlə maraqlanmalı, şəxsi təcrübəsini artıraraq, onları praktikada tətbiq etməyi bacarmalıdırlar: "Mən gənclərə tolerant olmağı, ona müraciət edən hərbi qulluqçuları və onların ailə üzvlərini, ümumiyyətlə, heç kəsi mühakimə etməməyi, məntiqi təfəkkürlərini genişləndirmələrini tövsiyə edirəm".

**baş leytenant X.Hacızadə**

3_Layout 1 14.09.2017 15:38 Page 1



## ŞƏHİDLƏRİMİZ

# SON NƏFƏSİNƏDƏK HƏRBİ ANDA SADİQ QALDI...

Həyatda ən böyük fədakarlıq Vətən yolunda şəhidlik zirvəsinə ucalmaqdır. Bu fədakarlığı etmiş hər bir şəxsin xatirəsini yaşatmaq, doğmalarına mənəvi dayaq olmaq bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Heç bir müharibə itkisiz olmur. Bu baxımdan Qarabağ müharibəsi də istisna deyil. Düşmənin hərbi təcavüzünə qarşı sinəsini sipər edən igid oğullarımızın amalı bir idi - Qarabağı işğaldan azad görmək və respublikamızın ərazi bütövlüyünün bərpasına nail olmaq. Döyüş əməliyyatlarının getdiyi Vətən torpaqlarının hər bir qarışına şəhid qanı tökülüb. Şəhid qanı tökülmüş yurdlarımız düşmən tapdağında qala bilməz və qalmayacaqdır.

Şərəfli döyüş yolu keçmiş Daxili Qoşunların şəhid hərbi qulluqçularından biri də gizir Məmmədov Fərhad Nadir oğludur. O, 1965-ci ildə Bakı şəhərində dünyaya göz açıb. Atası Nadir Məmmədov 1992-ci ildə onun ölümündən bir neçə ay öncə vəfat edib. Anası Fəridə Məmmədova isə 1985-ci ildə dünyasını dəyişib. Ailədə üç övlad böyüyüb. Fərhadın bir bacısı və bir qardaşı var. Kasıb, öz halal zəhməti ilə dolanan ailədə böyüyən Fərhad əməksevərliyi ilə seçilib. O, Bakının Yasamal rayonundakı 53 saylı orta məktəbdə və Xəzər rayonundakı 12 saylı internat məktəbində təhsil alıb. Sonra isə paytaxtda yerləşən 4 saylı orta texniki peşə məktəbini 1-ci dərəcəli motorçu - 2-ci dərəcəli matros ixtisası üzrə bitirib. Həmçinin Bakıdakı 19 saylı orta texniki peşə məktəbinin də məzunu olub. Burada isə quraşdırıcı elektrik-qaynaqçı peşəsinə yiyələnib. Göründüyü kimi, o, bir neçə ixtisası öyrənməyə can atıb, bu peşələrdən faydalanaraq çalışmaq və ailəyə maddi köməklik göstərmək kimi nəcib məqsədi qarşısına qoyub.

F.Məmmədov respublikamızdan uzaqlarda sovet ordusu sıralarında həqiqi hərbi xidmət keçib. Hərbi xidmətini qüsursuz başa vuraraq geriyə qayıdıb və yenidən əmək fəaliyyəti ilə məşğul olub. Harada çalışıbsa, halallığı, düzgünlüyü üstün tutub, sadəliyi, təvazökarlığı, gördüyü işə vicdanlı münasibəti ilə fərqlənib. Bir çox peşə bacarıqlarına görə dost-tanış, qonşular arasında ona müraciət edənlər çox olub. Heç kimə köməklik göstərməkdən imtina etməyib. Bununla da hamının hörmətini qazanıb.

1988-ci ildə Fərhad ailə qurub. 1990-cı ildə onun oğlu dünyaya gəlib. Adını Murad qoyublar. El arasında bir deyim var: arzu-muradına çatasan. O da bir yuva qurmaq, ata olmaq arzusuna qovuşmuşdu. Gələcək üçün isə xeyli arzuları vardı...

F.Məmmədov 1992-ci ildə yeni formalaşan və mart ayından Ağdamda döyüş yoluna başlayan Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında hərbi xidmətə qəbul olunur. Vətənin dar günündə, torpaqlarımızın Ermənistanın hərbi təcavüzünə məruz qaldığı bir vaxtda o, bu baş verənlərə laqeyd qala bilməzdi. Hərbi xidmət təcrübəsinin olması nəzərə alınaraq, o, bu hərbi biliklərini Vətən torpaqlarının müdafiəsi işinə yönəltmək istəyirdi. Düşmənin Xocalıda və digər yaşayış məntəqələrimizdə soydaşlarımıza qarşı törətdiyi vəhşiliklərin qisasını almağa can atırdı.

O, Daxili Qoşunların sıralarında öncə qısa müddətdə Bakının Nəriman Nərimanov rayonunda yerləşən, sonra isə ön cəbhədəki hərbi hissələrdə xidmət edib. Torpaqlarımızın erməni işğalçılarından azad olunması uğrunda döyüşlərdə cəsarət nümunəsi göstərən, müharibə ağrı-acılarına dözümlə yanaşan gizir F.Məmmədov döyüşçü yoldaşlarını itirdikdə dərin sarsıntı keçirib. Onun döyüş yolu Ağdamın düşmənlə təmas xəttində yerləşən yaşayış məntəqələri və Əsgəran istiqamətindəki Aranzəminli, Pircamal və Naxçıvanik kəndlərindən keçib. 1992-ci ilin iyun ayında burada qızğın döyüşlər gedirdi. Həmin vaxt döyüşçülərimiz düşmənin xeyli canlı qüvvəsini məhv edərək, bir sıra müdafiə mövqelərini də ələ keçiriblər. 1992-ci ilin iyun ayının 16-da gizir F.Məmmədov Naxçıvanik yaxınlığında döyüş zamanı düşmən minasının partlayışı nəticəsində ağır yaralanaraq şəhid olub. Döyüşçü yoldaşları onun meyitini döyüş meydanından çıxara biliblər. Beləcə, ürəyi Vətən sevgisi ilə döyünən cəsur hərbi qulluqçu öz ölümü ilə ölümsüzlük zirvəsinə ucalıb.






Şəhid gizirin meyiti 1992-ci il iyunun 18-də Bakıya gətirilərək Şəhidlər Xiyabanında dəfn olunub. Fərhad vaxtilə bir neçə dəfə Şəhidlər Xiyabanını ziyarət edib, şəhidlərin xatirəsinə ehtiram göstərib. Bu gün onun məzarı da burada dəfn edilən yüzlərlə şəhid kimi ziyarət yeridir.

Məqaləni hazırlayarkən Fərhadı ön cəbhədə yaxından tanıyan, son döyüşünün şahidi olan silahdaşları barədə məlumat aradım. Ancaq bu cəhdlərim nəticəsiz oldu. Təbii ki, uzun zaman keçib və belə məlumatları əldə etmək asan deyil.

Şəhidin ailəsinin ünvanını da xeyli axtarmalı oldum. Ailəsi Daxili Qoşunların şəhid hərbi qulluqçularının siyahısında qeyd olunan ünvandan köçüb. Suraxanı rayonunun Hövsan qəsəbəsində onların yeni ünvanını axtararkən təsadüfən şəhidin qardaşı Bəxtiyar Məmmədovun işlədiyi ofisə gəlib çıxdım. Kimi axtardığımı söylədikdə B.Məmmədov gözləmədiyim cavabı verdi: “Şəhid F.Məmmədov mənim qardaşımdır”. Beləcə, onunla tanış olub birgə Fərhadın ailəsinə baş çəkdik. Mənim gəlişim bu ailə üçün gözlənilməz idi. Fərhadın həyat yoldaşı Sənəm Məmmədova bildirdi ki, əvvəlki ünvandan köçdükdən sonra çoxdandır ailəyə, doğmaları istisna etsək, baş çəkən olmayıb. Sənəm xanım və oğlu Murad, habelə B.Məmmədovla Fərhad haqqında ətraflı söhbət etdik. Mənə məlumat verildi ki, ailəyə müvafiq müavinət təyin edilib. Bu, əlbəttə, şəhid ailəsinə dövlətimizin qayğısıdır. Ailə üzvləri şəhidin xatirəsinin əbədiləşdirilməsi yönündə lazımi işlər görülməsini istəyirlər.

B.Məmmədov qardaşını həmişə xatırladığını, onun ailəsini diqqətdən kənar qoymadığını vurğuladı. Fərhadın cənazəsi ailəsinə gətiriləndə yalnız o, tabutu açaraq baxa bilib. Həmin anların dəhşətli iztirabı yaddaşında silinməz iz qoyub.

S.Məmmədova bildirdi ki, Fərhad çox istiqanlı və ailəcanlı insan olub. Müharibəyə gedəndə də yeganə narahatlığı ailəsindən idi. Sənəm xanım Fərhadın bir çox müsbət şəxsi keyfiyyətlərindən danışdı. Dedi ki, o, həmişə hamıya yaxşılıq etməyə çalışırdı. Fərhadın rəssamlığa da marağı olub. Hərbi xidmətə qəbul olunmasından, hərbi forma geyinməsindən həmişə qürur duyub. “Həyat yoldaşımın ölümündən sonra onun yoxluğu ilə barışmaq, təkbaşına övlad böyütmək çox çətin idi. Ancaq nə edəsən, bu da bir taledir. Təsəllimiz odur ki, Fərhad Vətən yolunda canını qurban verib”- Sənəm xanım söylədi.

Şəhidin oğlu Muradın 27 yaşı var, subaydır. O, Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib. Atasının torpaqlarımızın müdafiəsində şəhid olması onun üçün də sözsüz ki, fəxredici faktdır. “Şəhidlərin qisasını almalıyıq və torpaqlarımızı işğaldan azad etməliyik” - Murad dedi.

Bəli, biz əcdadlarımızdan miras qalan və bu gün düşmənin viran qoyduğu torpaqlarımıza qayıdacağıq. Müqəddəs üçrəngli bayrağımız o yurdlarımızın üzərində yenidən dalğalanacaq. O gün Fərhad və minlərlə şəhidimizin ruhu rahatlıq tapacaq!

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

## GENERALLARIMIZ

### HÜSEYN XAN NAXÇIVANSKİ

***“Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov artilleriya sahəsində hansı zirvəni fəth etmişdisə, Hüseyn Xan Naxçıvanski də süvari birləşmələrinə komandanlıqda həmin zirvədə dayanırdı”.***



General Hüseyn xan Naxçıvanski 1863-cü il iyunun 28-də general Kəlbalı xanın ailəsində anadan olub. Atası on beş yaşlı Hüseyni 1876-cı ildə Peterburqdakı Paj korpusu məktəbinə oxumağa göndərir. Köhnə rus ordusunda Paj korpusunu və Nikolayev Kavaleriya Məktəbini bitirənlər yalnız qvardiyada xidmət etməyə göndərilirdi. Bu qapalı hərbi məktəblərdə adlısanlı zadəgan uşaqları oxuyurdu. O vaxtlar Peterburqda çoxlu naxçıvanlı ziyalı yaşayırdı. Onların da arasında xan nəslinin nümayəndələri çoxluq təşkil edirdi. İmperator II Aleksandrın şəxsi himayəsində olan korpus məktəbini Hüseyn xan 1883-cü ildə əla qiymətlərlə bitirir. Çarın xüsusi süvari qoşununda xidmət edən kornet Naxçıvanski beş il keçməmiş podporuçik rütbəsi alır.

Hüseyn xan Sankt-Peterburqda yerləşən birinci Qvardiya Süvari diviziyasının Leb-Qvardiya süvari alayında 1898-ci ilə qədər xidmət edir. Bu müddətdə eskadron komandiri vəzifəsinə qədər yüksələn Hüseyn xan Naxçıvanskinin rütbəsi də artıb rotmistr olur.

Sonralar Qafqazda və Rusiyanın müxtəlif şəhərlərində hərbi xidmətdə olan Hüseyn xan Naxçıvanski nümunəvi zabit kimi ali orden və medallara layiq görülür. Rus-yapon müharibəsi başlanana qədər o, İranın “Şire-Xorşid” ordeninin ikinci və dördüncü dərəcəsi ilə (bahalı almazla bəzədilmiş), zabitlərə məxsus “Rumın Ulduzu” ilə, Avstriyanın “Dəmir Xaç”, birinci, ikinci və üçüncü dərəcəli “Müqəddəs Stanislav”, dördüncü dərəcəli “Müqəddəs Aleksandr”, birinci dərəcəli “Müqəddəs Anna”, Bolqarıstanın “Döyüş xidmətlərinə görə” və üçüncü, dördüncü dərəcəli “Müqəddəs Vladimir” ordenləri ilə təltif olunur.

Nizami orduda sərkərdəlik qabiliyyətinə görə o, 1903-cü il aprelin 6-da polkovnik rütbəsi alır.

İnqilabdan əvvəlki qəzetlər, müxtəlif arxiv sənədləri öz səhifələrində Hüseyn xan haqqında az da olsa məlumat verib. Onlarla tanış olanda istər-istəməz belə qənaətə gəlirsən ki, Əliağa Şıxlinski və Səməd bəy Mehmandarov artilleriya sahəsində hansı zirvəni fəth etmişdisə, Hüseyn xan Naxçıvanski də süvari birləşmələrinə komandanlıqda həmin zirvədə dayanırdı.

1904-cü ildə Rus-yapon müharibəsi başlananda Hüseyn xan Naxçıvanski əksəriyyəti qafqazlılardan təşkil olunmuş ikinci Dağıstan süvari alayına komandanlıq edirdi. Polkovnik Hüseyn xanın alayı 1905-ci il yanvarın 14-də Landun-Qou kəndi uğrunda ağır döyüşlər aparmışdır. Bir neçə gün kəndi ala bilməyən döyüşçülər mahir komandirin hərbi fəndi ilə dan üzü hücuma keçərək sürətli zərbə ilə yaponları kənddən vurub çıxarmışlar. Həmin döyüşdə Kazak batareyasını yaponların mühasirəsinə düşmək təhlükəsindən xilas etdiyinə və Landun-Qou kəndini itkisiz aldığına görə polkovnik Hüseyn xan dördüncü dərəcəli “Müqəddəs Georgi” ordeninə layiq görülmüşdür. Bu güclü döyüş səhnəsi məşhur rəssam Viktor Vikentiyeviç Mazurovskinin yağlı boya ilə işlədiyi rəsmdə əbədiləşmişdir. Əsərdə alay döyüşçülərinin qızğın həmləsi və öndə at üstündə hücuma keçən polkovnik Hüseyn xan Naxçıvanskinin obrazı ustalıqla işlənmişdir.

Həmin əsər hazırda Moskvadakı Rusiya Dövlət Muzeyində saxlanılır.

Məşhur rus jurnalisti A.Kvitka Port-Arturda müharibə başlayanda könüllü cəbhəyə getmiş və döyüşlərdə jurnalist-zabit kimi iştirak etmişdir. Müharibə gedə-gedə “Zabaykalye kazak zabitinin gündəliyi” adlı maraqlı bir əsər yazmışdır. 1908-ci ildə Sankt-Peterburqda nəşr etdirdiyi həmin kitabda igid eloğlumuz polkovnik Hüseyn xan Naxçıvanski haqqında maraqlı səhifələr var:

Səhifə 245-də: “Dağıstanlıların komandiri xan Naxçıvanski, podpolkovnik Byuntiq və knyaz Tumakov həyətimə daxil olanda səhər saat 11 olardı. Onlar mənimlə nahar etməyə qaldılar... Qafqazlıların əsgər və komandirləri döyüşlərdə hamıdan seçilirdi. Onları bir şeydə qınamaq olardı, o da həddindən artıq cəsur olmalarında...”

Səhifə 361-də: “Polkovnik xan Naxçıvanskinin Qafqaz-Kazak briqadasının cəsurları üç yapon nəqliyyatını məhv etmişlər...”

Polkovnik Hüseyn xan Naxçıvanski yaponlara qarşı apardığı döyüş məharətinə görə dördüncü dərəcəli “Müqəddəs Georgi”, “Müqəddəs Vladimir” (bantla birgə) üstü yazılı qızıl silahla və “İgidliyə görə” ordenləri ilə təltif olunmuşdur.

Port-Artur müharibəsi qurtardıqdan sonra polkovnik Hüseyn xan yenə Sankt-Peterburqa çağırılır və əvvəlki Leyb-qvardiya süvari alayında xidmət edir.

1906-cı ilin əvvəllərində polkovnik Hüseyn xan Naxçıvanski Qafqaza göndərilir. Qısamüddətli məzuniyyətdə olur. O, Tiflisdə yerləşən rus ordusunun ən şöhrətli - 17-ci Nijeqorod draqun alayının komandiri təyin olunur.

1907-ci ildə o, general-mayor rütbəsinə layiq görülür. Artıq 1912-ci ildə Hüseyn xan Naxçıvanski 1-ci Əlahiddə süvari briqadasının komandiri idi. Birinci dünya müharibəsi cəbhələrində qazandığı qələbələrə və sərkərdəlik məharətinə görə 1916-cı ildə Hüseyn xan Naxçıvanskiyə tam süvari qoşunu generalı rütbəsi verilmişdir. “Kaspi” qəzeti o zaman iftixarla yazırdı: “Qafqaz Ordusunun Baş Komandanının sərəncamında olan qvardiya süvarisi general adyutant, general-leytenant həmyerlimiz Hüseyn xan Naxçıvanskiyə tam süvari generalı rütbəsi verilib. Sonralar Cənubi Qafqaz cəbhəsinin komandanı təyin edilmiş, Rusiyada Fevral inqilabından (1917) sonra hərbi işdən uzaqlaşmışdır”.

Hüseyn xan Kəlbalı xan oğlu Naxçıvanski 1919-cu ildə Petroqradda bolşeviklər tərəfindən həbs olunmuşdur. Güman edilir ki, o güllələnmişdir, lakin onun dəfn yeri məlum deyil. Atalarının ölümündən sonra oğlu və qızı Avropaya mühacirət etmişdir. Nəvəsi Corc Naxçıvanski ABŞ-da, digər nəvəsi Mariya Naxçıvanskaya Misirdə yaşayır.

***(Tədqiqatçı-jurnalist Şəmistan Nəzirlinin general Hüseyn Xan Naxçıvanski haqqında yazdığı məqalədən).***

# SNAYPER YARIMQRUPU TAPŞIRIQLARI UĞURLA YERİNƏ YETİRİR

16075 saylı hərbi hissənin il ərzində əldə etdiyi müsbət nəticələrə görə fərqlənən bölmələrindən biri xüsusi təyinatlı dəstənin snayper yarımqrupudur. Döyüş hazırlığının qorunub saxlanılması məqsədilə yarımqrup üzvləri daim öz üzərilərində çalışır, qarşıya qoyulmuş tapşırıqların icrasını və ya xidməti-döyüş fəaliyyətini müvafiq təlimatların tələblərinə uyğun yerinə yetirirlər. Bu barədə məlumat verən yarımqrup komandiri baş çavuş Fuad Abdullayev qeyd etdi ki, şəxsi heyətin döyüş hazırlığının daim yüksək səviyyədə olması üçün rəhbər sənədlərin tələblərinə əsasən zəruri tədbirlər həyata keçirilir. Yarımqrup komandiri qrupda döyüş və ictimai-siyasi hazırlıq, fiziki hazırlıq, atəş hazırlığı, həmlə-desant, hərbi dağçılıq, ləpirçilik məşğələlərinin Daxili Qoşunlar Komandanının müvafiq direktivinin tələblərinə və hərbi hissə komandiri tərəfindən təsdiq edilmiş məşğələ cədvəlinə əsasən təşkil edildiyini sözlərinə əlavə etdi. Həftə ərzində keçirilən atəş hazırlığı məşğələsində hərbi qulluqçular müvafiq normativləri yerinə yetirərək, atıcılıq vərdişlərinin artırılması üçün çalışırlar. Ay ərzində xüsusi-taktiki hazırlıq məşğələsində ərazi şərtlərinə uyğun olaraq, hərbi topoqrafiya məşğələsində coğrafi cəhətlərin təyin edilməsi, ərazidə öz yerini təyinetmə məşqləri aparılır.



İl ərzində aparılan uğurlu xidmətin nəticəsidir ki, 2017-ci ildə hərbi hissədə keçirilən yekun yoxlama zamanı snayper yarımqrupu müsbət nəticələr qazanıb. Çalışqanlığına, çevikliyinə və nümunəvi xidmətinə görə fərqlənən yarımqrup komandirinin sözlərinə görə, hər bir hərbi qulluqçuya fərdi olaraq, ona təhkim olunmuş silahdan düzgün, təyinatı üzrə istifadə qaydaları praktiki cəhətdən izah edilir. Baş çavuş F.Abdullayev şəxsi heyətin hərbi intizam qaydalarına riayət etməsinə, zahiri görkəminə, şəxsi gigiyena qaydalarına əməl etməsinə ciddi diqqət yetirir, xüsusi vasitələrin taktiki-texniki xüsusiyyətləri, onlara müvafiq qulluğun göstərilməsi, təhlükəsizlik qaydaları haqqında məlumat verir. Hər dəfə təlim, yaxud məşğələ üçün silahların, digər texnikanın hazırlığının, təlim və məşğələdən sonra sayının və vəziyyətinin yoxlanılması mühüm vəzifələrdəndir.

Tələbkarlıq və qayğıkeşlik prinsipinə əməl edən komandir tabeliyində olanlara qayğı göstərmək, onların ehtiyaclarının öyrənilməsi üçün səy göstərir: “Təbii ki, şəxsi heyətlə onların nizam-intizamının, mənəvi-psixoloji durumunun, ən əsası döyüş ruhunun artırılması istiqamətində lazımi işlər aparılır və bundan sonra da bu istiqamətdə əlimdən gələni əsirgəməyəcəyimə söz verirəm. Yarımqrup üzvləri yaxşı başa düşür ki, sağlam mənəvi-psixoloji keyfiyyətlərə malik olan hərbi qulluqçu ən yaxşı döyüşçüdür”.

Baş çavuş F.Abdullayev hesab edir ki, birinci növbədə komandir özü şəxsi nümunə olmalıdır. Yalnız bu halda tabeliyində olan hərbi qulluqçulardan nizam-intizam tələb etmək olar.

**leytenant N.Ağayeva**

4_Layout 1 14.09.2017 15:42 Page 1



# ŞƏXSİ HEYƏTƏ HƏR CƏHƏTDƏN NÜMUNƏ OLAN TAQIM KOMANDİRİ ...

Hərbi xidmətdə zabitlər tabeliklərindəki şəxsi heyət üçün hər cəhətdən nümunə olmalıdırlar. Zabit peşəkarlığı xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsində mühüm rol oynayır. Onların nüfuzunun formalaşmasında fərdi keyfiyyətlərinin də təsirini diqqətdən kənar qoymaq olmaz. Daxili Qoşunların hərbi hissələrində bacarıqlı, xidməti fəaliyyətdə təqdirəlayiq nailiyyətlər qazanan zabitlər az deyil. Belə zabitləri qəzetimizdə müntəzəm olaraq oxucularımıza təqdim edirik.



16076 saylı hərbi hissədə mühafizə bölüyünün taqım komandiri baş leytenant Azər Mahmudov hərbi hissə komandanlığı tərəfindən müsbət xarakterizə olunur. O, 1988-ci ildə Şirvan şəhərində dünyaya göz açıb. Burada şəhid Tahir Bağırov adına orta məktəbdə təhsil alıb. Orta məktəb illərindən hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunub. Azər hələ yeniyetmə yaşlarından idmana böyük maraq göstərib. İdmanın sərbəst güləş növü ilə məşğul olaraq, ötən illərdə yarışlarda yüksək məharət nümayiş etdirib. O, respublika çempionu adını qazanıb, qızıl medala layiq görülüb. 2006-cı ilin oktyabr ayında Azər həqiqi hərbi xidmətə çağırılıb. Daxili Qoşunların sıralarında 16077 saylı hərbi hissədə vicdanla xidmət edib. Kiçik çavuş hərbi rütbəsində tərxis olunub.

2009-cu ilin iyun ayından isə o, Daxili Qoşunların tərkibində müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 16077 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsində snayper vəzifəsinə təyin edilib. Bu vəzifədə ona çavuş hərbi rütbəsi verilib. Onun hərbi xidmətdə əzmkarlığı, yüksək döyüş və mənəvi-psixoloji hazırlığı nəzərə alınaraq, hərbi təhsil almağa göndərilib. Belə ki, o, 2012-ci ildə Daxili Qoşunların Orta İxtisas Hərbi Məktəbinə qəbul olunub. 2014-cü ildə buranı bitirən Azər Daxili Qoşunların öz yetirməsi olaraq, zabit hərbi rütbəsində xidmətini davam etdirib. Beləliklə, onun hərbi karyerasında yeni mərhələ başlayıb. Daxili Qoşunların 16075 saylı hərbi hissəsində təminat bölüyünün komendant taqımının və patrul bölüyündə taqım komandiri vəzifələrində xidmət edib. Bu vəzifələrdə qazandığı şəxsi heyətlə iş təcrübəsi, qoşunların yerinə yetirdiyi tapşırıqların xüsusiyyətlərini dolğun mənimsəməsi zabit kimi formalaşmasında vacib məqamlardır.

2015-ci ildən isə 16076 saylı hərbi hissədə xidmət edən baş leytenant A.Mahmudov ona göstərilən etimadı doğrultmağa çalışır. Tabeliyindəki şəxsi heyətin yerinə yetirdiyi vəzifələrin xüsusiyyətlərini nəzərə alsaq, onun taqım komandiri kimi fəaliyyətini düzgün qura bilməsi, təlim-tərbiyə prosesində hərbi rəhbər kimi öz mövqeyini möhkəmləndirməsi olduqca önəmlidir. Baş leytenant A.Mahmudov özü inad və səyi ilə qarşısına qoyduğu hədəfə və məqsədə çatmağı bacaran, eləcə də əsgərlərini bu ruhda yetişdirən zabitdir.

Onunla söhbət zamanı bildirdi ki, hər bir komandir üçün əsgərlərinin inamını qazanması vacibdir. Bu inamı zabitə onun ədalətli və qayğıkeş olması, əsgərlərlə heç bir fərq qoymadan davranması, hərbi kollektivdə sağlam mənəvi ab-hava yarada bilməsi, qarşıya qoyulan tapşırıqların yerinə yetirilməsinə bütün bilik və bacarığını səfərbər etməsi qazandırır. Komandirin günün nizam qaydalarına riayət etməsi, təlimdə zəhmətini əsirgəməməsi, idman vərdişlərini qoruyub saxlaması, daim özünü ciddi aparması, milli-mənəvi dəyərlərə bağlı olması da hərbi xidmət zamanı gərəkli nümunədir. Baş leytenant A.Mahmudov onu da vurğuladı ki, şəxsi heyətin fərdi keyfiyyətlərinə, ailə vəziyyətinə xüsusi diqqət yetirir: “Hər hansı bir əsgərin elə fərdi cəhəti ola bilər ki, bu məqam xidmət zamanı çətinliklərlə üzləşdikdə, sınaqlarla üz-üzə gəldikdə onun mənəvi dayanıqlığını itirməməsinə kömək edər. Ona görə də komandir öz əsgərlərini yaxşı tanımalı, onların müsbət keyfiyyətlərini üzə çıxarmalı, daim nümunəvi xidmətə həvəsləndirməli, uğurlu nəticələrə yönəltmək üçün effektiv üsullardan yararlanmalıdır” - deyən zabit şəxsi heyətə əqidəcə vətənpərvər olmağı aşılayır. Daxili Qoşunların nüfuzunu uca tutaraq, xidmətdə nöqsanlara yol verməməyi, ayıq-sayıq olmağı tələb edir.

Bu il hərbi hissədə keçirilən inspeksiya yoxlaması zamanı baş leytenant A.Mahmudovun komandiri olduğu taqım yüksək nəticə göstərib, şəxsi heyətin nəzəri və praktiki hazırlığı müsbət qiymətləndirilib. Belə bir nəticə taqım komandirinin diqqətəlayiq əməyinin göstəricisidir. O, hərbi hissə komandiri tərəfindən bir neçə dəfə mükafatlandırılıb, onun fəaliyyəti həqiqətən də zabit yoldaşlarına nümunədir. Zabit üçün hərbi xidmətdə özünə tələbkarlıq, daim peşə hazırlığını təkmilləşdirmə, xarakter yetkinliyi, liderlik xarizması mühüm rol oynayır.

16076 saylı hərbi hissədə tanış olduğum baş leytenant A.Mahmudov barədə inamla söyləmək olar ki, onun yeni uğurları qabaqdadır və qoşunların gələcəyi də məhz belə zabitlərə bağlıdır.

**Yalçın Abbasov**

## HƏRBİ XƏBƏRLƏR

### ABŞ şirkəti dünyanın ən kiçik silahını hazırlayıb

ABŞ-ın “Trailblazer Firearms” şirkəti kibrit qutusu ölçüsündə tapança hazırlayıb.

“LifeCard” adı verilən tapançanın uzunluğu 8,59 sm, qalınlığı 1,27 sm təşkil edir.



Alüminium korpusa və paslanmayan polad gövdəyə malik silah 5,6 mm kalibrli patronlarla tək-tək atəş açır. 198 qram çəkisi olan tapançanın darağı dörd patron tutur. Korpusu bütöv, mexanizmi 27 detaldan yığılıb. Tapançadan əl ilə çaxmağı qaldırmaq və tətiyi basmaqla atəş açmaq olur.

Hədəfi nişan almaq üçün lülənin yuxarı hissəsində “V” formalı kanal var. Tapançanın yan korpusunda tətiyi bloklayan qoruyucu yerləşir. “LifeCard”ın dəyəri 399 ABŞ dollarıdır.

### “EVO-105” özüyeriyən haubitsaların sınaqları yekunlaşıb

Cənubi Koreyanın “Hanhwa Techwin” şirkətinin istehsalı olan “EVO-105” özüyeriyən haubitsaların sınaqları başa çatıb.

Sınaqları uğurla nəticələnən haubitsaların 2018-ci ildə seriyalı istehsalına başlanılacaq.

105 mm çaplı artilleriya sisteminin yük maşınına inteqrasiyasına



2009-cu ildə başlanılıb və ilk prototipi 2011-ci ildə sərgidə nümayiş olunub.

Cənubi Koreya Silahlı Qüvvələri bu haubitsalardan ilkin olaraq 800 ədəd sifariş edib.

### Çinin yeni nəsil döyüş gəmisi suya endirilib

Çin Hərbi Dəniz Qüvvələrinin (HDQ) “Type 055” sinifinə aid yeni nəsil döyüş gəmisi istifadəyə verilib.



Şanxay şəhərində “Jiangnan” zavodundan suya endirilən gəmi Çin Hərbi Dəniz Qüvvələrinin ən böyük döyüş gəmisi hesab olunur.

Son texnologiya müdafiə sistemlərinə malik 10 000 tonluq gəmidən bundan sonra cəmi 4 ədəd istehsal edilməsi planlaşdırılır.

Ümumiyyətlə, Çin donanması 2020-ci ildə 265-273 arasında gəmi və sualtı gəmiyə sahib olmağı nəzərdə tutur.

Bununla da Çin dünyada, hazırda gəmi sayı 275 olan ABŞ donanmasından sonra ikinci yerdə qərarlaşacaq.

# NARKOMANİYA - DÖVRÜMÜZÜN QLOBAL PROBLEMİ

Narkomaniya və narkotizm sarsıntı və faciələri ilə hüdudsuz olan sosial-iqtisadi, cinayət-hüquqi, mənəvi-psixoloji və tibbi problemlərdən biridir. O yoluxucu xəstəlik kimi əhali, xüsusən də gənclər arasında yayılmış, miqyasını genişləndirərək transmilliləşmiş, bəşəriyyətin mənəvi-əxlaqi dayaqlarını dağıtmaq səviyyəsinə çatmışdır. Hazırda narkotizasiyanın acı nəticələrini yaşamayan ölkə tapmaq mümkün deyil. Narkomanlıq və narkobiznes ərazi, milli, dini, sinfi və digər sərhədlər tanımayan, qlobal xarakter daşıyır. Son yarım əsrdə narkomaniya və narkocinayətkarlıq nisbətən lokal fenomendən kriminal və antisosial aktivliyin mənbəyinə çevrilmişdir.

İnsanların sağlamlığına birbaşa neqativ təsirdən başqa, narkomaniyanın ictimai təhlükəliliyi ondan ibarətdir ki, narkomaniya müxtəlif tamah-zorakı xarakterli cinayətlərin törədilməsinə şərait yaradan kriminogen amildir. Məhkəmə-istintaq təcrübəsində narkotik eyforiya və ya abstinent sindrom vəziyyətində narkomanların ən müxtəlif xarakterli tamah-zorakı cinayətlər törətməsi barədə çoxsaylı faktlar vardır. Narkomanlığın ictimai təhlükəliliyi insanların sağlamlığının ciddi pozulmasında, intellektuallığın, ictimai fəallığın aşağı düşməsində, sosial əlaqələrin daralmasında və parçalanmasındadır. Narkotiklərdən istifadə nəticəsində psixi xəstəliklərə düçar olan, cəmiyyətdə tüfeyli həyat sürən narkomanlar tərəfindən təhlükəli əməllərin törədilməsi hallarına tez-tez rast gəlmək olur.

Uzun illər ərzində narkotizm problemi ilə məşğul olan tədqiqatçılar bu məsələyə toxunaraq göstərirlər ki, bütövlükdə narkotizmlə cinayətkarlıq arasında qarşılıqlı əlaqənin və bunlar arasında bilavasitə asılılığın olması artıq heç kimdə şübhə doğurmur. Qiyməti çox baha olan və durmadan artan narkotiklərdən asılı vəziyyətə düşən narkoman narkotik vasitələr almaq üçün vəsait əldə etmək məqsədilə cinayət törətməyə hər zaman hazır olur. Narkotik vasitələrin qəbuluna ehtiyac gücləndikdə, onun davranışının kriminal səbəbi artır. Narkomanın eqoizmi, onun bütün niyyət və hərəkətləri hər hansı bir yolla onun üçün zəruri olan narkotik dozanın əldə edilməsinə yönəlir ki, bu da onu hüquqazidd hərəkətlərə sövq edir. Hətta ən zəif narkotik vasitə hərəkətin koordinasiyasını pozmağa və diqqəti aşağı salmağa qadirdir ki, bu da çox hallarda cinayətkar etinasızlığa, diqqətsizliyə, cinayətkar özünəgüvənməyə gətirib çıxara bilər. Bundan başqa, xəstə ehtirasların təsiri və narkotik “aclığın” dəf edilməsi üçün hər şeyə hazır olan bir çox narkomanlar öz patoloji tələbatlarını ödəmək üçün istənilən cinayətləri törətməyə hazırdırlar.

Narkotik vasitələrin və psixotrop maddələrin istehlakı nəticəsində əmək qabiliyyətinin kəskin aşağı düşməsi və şəxsi büdcənin kəsirdə olması fonunda tolerantlıq güclənir, abstinensiya dərinləşir ki, bu da narkomanları qəbul etdikləri narkotik dozasını kəskin artırmağa vadar edir. Xroniki narkomanların bir çoxu tez və ya gec narkotik vasitəni və ya psixotrop maddəni əldə etmək üçün maddi vəsaitlərin tapılması yolunu oğurluq, soyğunçuluq, quldurluq və digər bu kimi tamah və tamah-zorakı cinayətlərin törədilməsində görürlər.

Narkomanlıq cəmiyyətin gələcəyi üçün iki böyük təhlükə daşıyıcısıdır: birincisi, narkomaniya ilə xəstələnmiş fərdin şəxsiyyətində əsaslı dəyişikliklər baş verir ki, bunlar da, öz növbəsində, onun və ailəsinin həyatında mənfi dəyişmələrə gətirib çıxarır. İkincisi, narkomaniya cinayətkarlığın, zorakılığın, işsizliyin artmasına, dəhşətli xəstəliklərdən olan QİÇS və hepatitin yayılmasına şərait yaradır.

Bir növ narkomaniya əleyhinə mübarizə aparmaq başqa növ cinayətlərin qarşısını almaq deməkdir. Ümumiyyətlə, narkomanlar və narkotik maddələrin satışı ilə məşğul olanlar çalışırlar ki, varlı adamların uşaqlarını bu “tələyə” salsınlar. Bu maddəni bir dəfə dadan gənc ardıcıl olaraq həmin adamı axtararaq, özləri “dərdlərinin dərmanını” istəyirlər. Beləliklə, narkomaniya və narkotizmin şəxsiyyətin formalaşmasına dağıdıcı təsiri dairəsi genişlənir və cəmiyyətə zidd tüfeyli mövcudluq üçün qidaverici mühit yaradılır.

Narkotik qəbul edən yeniyetmənin kriminal meyilləri xüsusən təhlükəlidir. Belə ki, neqativ psixi kənarlaşmalar onun yaş xüsusiyyətləri, xarakterin zəifliyi, yüksək emosional vəziyyəti, özünə mənəvi nəzarətin olmaması ilə bağlı xüsusən ağırlaşır. Beləliklə, eyforiya vəziyyətində yeniyetmələr yaşlılara nəzərən hüquqpozuntularına daha çox meyillidirlər. Düzgün olmayan sosial-mənəvi istiqamətlənmə nəticəsində narkotik eyforiya və abstinensiya vəziyyətində olan yeniyetmə tərəfindən törədilən hüquqpozuntuları və ya cinayətlər çox zaman motivsiz, mənasız xarakter daşıyır, bəzən vandalizm doğurur, bir sıra hallarda xüsusi qəddarlığı ilə fərqlənir.

Narkomaniya və narkotizmlə effektiv mübarizə aparmaq, cəmiyyət və şəxsiyyət üçün olduqca təhlükəli olan təzahürlərin yayılmasının qarşısını qətiyyətlə almaq, narkotik vasitələrdən və psixotrop maddələrdən asılılığın tibbi, sosial, psixoloji və iqtisadi xarakterli mənfi nəticələrini aradan qaldırmaq istəyənlərin, o cümlədən dövlət orqanlarının, ictimai təşkilatların, ayrı-ayrı vətəndaşların xüsusi diqqətini tələb edir. Ona görə də onunla mübarizəyə hər bir ölkənin aparıcı kriminoloqları, narkoloqları, psixoloqları, psixiatrları, sosioloqları, habelə xarici ölkələrin mütəxəssisləri cəlb edilməlidir. Narkomanlığın qarşısının alınmasında və narkobiznesə mübarizədə hüquq-mühafizə orqanları ilə bərabər səhiyyə və təhsil müəssisələri də xüsusi rol oynamalıdırlar. Eyni zamanda, nakromanlığın profilaktikasında kütləvi informasiya vasitələrinin, mətbuat, radio və televiziyanın, xüsusən də internetin imkanlarından daha geniş və səmərəli şəkildə istifadə edilməlidir.

Narkomaniyanın yayılması ilə mübarizədə ən vacib istiqamətlərdən biri də respublika əhalisi arasında sağlam həyat tərzinin təbliği və gənclərin narkotizm əleyhinə düzgün və sistematik tərbiyələndirilməsidir. Gənc nəsil əhalinin narkomaniyanın təsirini, onun çətinliklərini, münaqişələri dəf etməkdə çətinlik çəkən ən kövrək hissəsidir. Əksəriyyət, əsasən də gənclər narkomaniyanın nə olduğu haqda heç düşünmürlər. İctimai fikir bu sosial bəlayla həqiqi mübarizəyə hələ tam hazır deyil.

Yeniyetmə və gənclərin narkomaniya və narkobiznes “toruna” düşməsinin qarşısını almaq məqsədilə dövlət və cəmiyyətin bütün imkanları səfərbər edilməli, əks zərbənin əsas istiqamətləri, strategiyası və taktikası dəqiq hesablanmalıdır. İstər keçmiş ənənələrə, istərsə də dünya təcrübəsinə istinad edilməli, narkotizmə təsirin ən səmərəli üsulları tapılmalıdır. Narkomaniya və narkotizmlə mübarizədə ictimai təşkilatların, xeyriyyə cəmiyyətlərinin, dini qurumların imkanlarından və bacarıqlarından da istifadə edilməlidir.

Bir sözlə, qarşıda asan olmayan, böyük zaman, qüvvə və bacarıq, təmkin və səbir tələb edən, olduqca çətin və mürəkkəb, kompleks xarakter daşıyan bir iş durur. Hər birimiz ardıcıl, fasiləsiz və qətiyyətlə həyata keçirilməli olan bu mübarizə işinə hazır olmalıyıq.

# SƏRRAST ATICI

Bacarığına, intizamına, yüksək döyüş hazırlığına görə fərqlənən hərbi qulluqçulardan biri də gizir Şamil Əhmədovdur.



O, 1990-cı il mart ayının 26-da Xızı rayonunda dünyaya göz açıb. Orta məktəbi 2007-ci ildə bitirən Şamil elə həmin ildə Bakı İdarəetmə və Texnologiya kollecinə qəbul olunub. Müddətli həqiqi hərbi xidmətini 2010-2011-ci illərdə Dövlət Sərhəd Xidmətində hərbi hissəsində keçib. Məhz bu illərdə həyat yolunu seçən, peşəkar hərbçi olmağı qarşısına məqsəd qoyan Şamil 2012-ci ildə Daxili Qoşunların 17074 saylı hərbi hissəsində müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmət etməyə başlayıb. 2015-ci ildən 16075 saylı hərbi hissədə xidmətini uğurla davam etdirir. Peşəkarlığına görə xüsusi təyinatlı dəstənin xüsusi təlimatçı qrupunda təlimatçı vəzifəsinə təyin olu-nub. Belə ki, silahın taktiki-texniki xüsusiyyətlərini yaxşı mənimsədiyinə görə qoşunlar üzrə keçirilən atıcılıq yarışmalarında üç il ardıcıl olaraq 2-ci yeri qazanıb.

Bir təlimatçı kimi üzərinə düşən vəzifələri ləyaqətlə icra edir, hissədə şəxsi heyətin təliminə məsuliyyətlə yanaşır. Kollektiv arasında hörmət qazanan gizir Ş.Əhmədov haqqında qrup komandiri baş leytenant İlqar Nəcəfli də öz müsbət fikirlərini səsləndirdi: “Öz üzərində daim çalışan, bilik və bacarıqlarını təkmilləşdirən gizir Ş.Əhmədov verilən tapşırıqları məsuliyyətlə icra edir. Yaxşı xidmət etdiyinə görə dəfələrlə mükafatlandırılıb”.

Vətənə, dövlətə xidmət etdiyi üçün daim qürur hissi keçirdən və xidmətiylə bağlı hər zaman axtarışda olan hərbi qulluqçumuz 2017-ci ilin iyul ayında Türkiyə Respublikasının Ankara şəhərində fəaliyyət göstərən “atıcılıq və peşəkar nişançılıq məktəbində” təkmilləşmə kursuna cəlb olunub.

Kursu yüksək balla başa vuran gizir Ş.Əhmədov bundan sonra da öz üzərində çalışacağına, daim nümunəvi xidmətiylə seçiləcəyinə söz verdi.

**leytenant N.Ağayeva**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: X.Hacızadə

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonu : (012) 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000